


AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

22 iyun 2023-cü il
cümə axşamı

1933-cü ildən çıxır
№ 24 (3638)


# Azərbaycan-Türkiyə qardaşlığı sülhə və sabitliyə xidmət edir

İyunun 15-də xalqımız ulu öndər Heydər Əliyevin xilaskarlıq missiyası sayəsində 30 il öncə zülmətdən işıqlı sabaha çıxdığı günü və Azərbaycanla qardaş Türkiyə arasında imzalanan Şuşa Bəyannaməsinin ikinci ilini təntənə ilə qeyd etdi. Məhz bu ərəfədə qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri çərçivəsində keçirilən görüşlər, birgə bəyanatlar və hər iki ölkə rəhbərinin iştirakıyla Hərbi Hava Qüvvələrinin yeni Mərkəzi Komanda Məntəqəsinin açılışı Azərbaycan-Türkiyə müttəfiqliyinin qlobal miqyasda təkrarsız, eyni zamanda qardaş ölkələrin vahid güc olduğunu bir daha sərgilədi.

Prezident İlham Əliyevlə keçirilən geniş tərkibli görüşdə qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğan mədəniyyətimizin paytaxtında Türkiyənin açacağı konsulluqla bağlı fikirlərini bölüşdü, Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə yüksələn əlaqələrin bütün sahələrdə daha da inkişaf etdirilməsində qərarlı olduğunu bildirdi: "İnşallah, Şuşadakı baş konsulluğumuz hər an açıla bilərsə, bu, təbii ki, yenə başda Ermənistan olmaqla bütün dünyaya ayrı bir mesaj olacaqdır".

Prezident Rəcəb Tayyib Ərdoğan bu fikri ilə bir daha Ermənistana,



onun havadarlarına mesaj ünvanladı.

Bu gün Türkiyə-Azərbaycan qardaşlıq əlaqələri qarşısında yeni imkanlar yaranıb. 44 günlük Vətən müharibəsində Türkiyənin Azərbaycana verdiyi dəstək xalqımızı, ordumuzu daha da ruhlandırdı, diplomatik cəbhədə xaricdən edilən təzyiqləri zərərsizləşdirdi.

Savaşdan sonra iki ölkə arasında hərbi sahədə əməkdaşlıq daha da dərinləşdi. Düzdür, əvvəllər də hər iki ölkənin hərbçilərinin iştirakı ilə birgə təlimlər keçirilirdi. Eləcə də Azərbaycan hərbçiləri Türkiyədə müəyyən təlim kurslarına qatılaraq peşəkarlıqlarını artırırdılar. İki qardaş ölkə arasında hərbi sahədə əməkdaşlığın böyük perspektivlərinə diqqət çəkən dövlətimizin başçısının Azərbaycan Ordusu Türkiyə Ordusunun modeli əsasında inkişaf edir fikri iyunun 13-də iki qardaş Prezidentin iştirakı ilə Hərbi Hava Qüvvələrinin yeni Mərkəzi Komanda Məntəqəsinin açılışını şərtləndirdi və bu sahədə daha da güclənən əməkdaşlığın bariz nümunəsi oldu.

Geniş tərkibli görüşdə Prezidentlər bu ilin əvvəllindən müəyyənləşən planlara əsasən 16 hərbi təlimin keçirilməsinin nəzərdə tutulduğunu, habelə artıq onlardan 6-sının başa çatdığını da diqqətə çatdırdılar.

Əlbəttə ki, Azərbaycan-Türkiyə birliyi Cənubi Qafqazda çox güclü amildir. Və hərbi sahədə əməkdaşlığın gücləndirilməsi regionda təhlükəsizliyin təminatına real zəmanət verir.

Mətbuata bəyanatda Zəngəzur dəhlizinin açılması ilə bağlı məsləhətləşmələrin aparıldığını deyən Prezident İlham Əliyev israrlı olduğunu vurğuladı: "Zəngəzur dəhlizinin açılması qaçılmazdır, nə qədər tez olsa, o qədər yaxşıdır. Bu dəhliz bütün ölkələr üçün yeni imkanlar açacaq və bölgədə işbirliyi məsələlərinə də müsbət təsir göstərəcəkdir".

Bir sözlə, baş verən bütün proseslərə əsasən deyə bilərik ki, tarixin heç bir dönəmində Türkiyə-Azərbaycan münasibətləri indiki qədər yüksək səviyyədə olmayıb. İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğan qardaşlığı sübut edir ki, getdikcə əlaqələr sarsılmaz bağlarla daha da möhkəmlənəcək. Bu gün Azərbaycan-Türkiyə birliyi, qardaşlığı beynəlxalq sabitlik, inkişaf və təhlükəsizlik amilidir və növbəti illərdə görüləcək işlərlə bağlı yol xəritəsini də müəyyənləşdirib.

## Kompleks tədbirlər nəticəsində

Cari ilin yanvar-may ayları ərzində hüquq mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 5016 cinayət faktı aşkarlanmışdır. Onlardan 1707-si narkotik vasitələrin qanunsuz satışı, 3185-i narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 96-sı qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiya edilməsi, 28-i isə bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olmuşdur.

Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə 3 ton 765 kiloqram 317,349 qram narkotik vasitə və psixotrop maddələr müsadirə olunmuşdur. Onların 1 ton 369 kiloqram 279,554 qramını heroin, 1 ton 993 kiloqram 649,769 qramını marixuana, 139 kiloqram 597,411 qramını tiryək, 44 kiloqram 235,402 qramını həşiş, 215 kiloqram 818,084 qramını psixotrop maddələr, 2 kiloqram 737,13 qramını digər narkotik vasitələr təşkil etmişdir.

Həmçinin göstərilən dövr ərzində 27028 ədəd həb metadon, 5269 ədəd çətənə bitkisi, eləcə də 1 kiloqramdan artıq, 4421 ədəd kapsul və 953 ədəd həb güclü təsir edən maddə və 40,682 qram prekursor qanunsuz dövriyyədən çıxarılmışdır.

Hesabat dövründə 3323 nəfər narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə cəlb edilmişdir.

2023-cü ilin yanvar-may ayları ərzində qanunsuz dövriyyədən götürülmüş 3 ton 765 kiloqramdan çox narkotik vasitələrin və psixotrop maddələrin ümumilikdə dəyəri 157 milyon 555 min AZN kimi qiymətləndirilir.

Təhlil göstərir ki, 2022-ci ilin yanvar-may ayları ilə müqayisədə 2023-cü ilin müvafiq dövrü ərzində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı hüquq mühafizə orqanları tərəfindən aşkar edilən faktların ümumi sayı 163, satış məqsədi olmadan qanunsuz əldə edilib saxlanılması ilə əlaqədar faktların sayı 237, qaçaqmalçılıqla bağlı cinayətlərin sayı 26 fakt, məsuliyyətə cəlb edilmiş şəxslərin sayı 258 nəfər, qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitələrin çəkisi isə 885 kq 492,599 qram artmışdır. O cümlədən, narkotiklərin qanunsuz satışı ilə bağlı faktların sayı 53, digər növ cinayət faktların sayı 15, narkotik xassəli bitkilərin qanunsuz kultivasiya edilməsi ilə bağlı faktların sayı 6, qrup halında olan cinayətlərin sayı isə 26 fakt azalmışdır.

Müvafiq dövr ərzində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə 36 min 563 nəfər istiqamətləndirilmişdir. Onlardan narkotiklərdən istifadənin təyin edilməsi məqsədilə tibbi müayinədən keçirilmiş 1188 nəfərindən 640-nin istifadəçi olması müəyyən olunmuş və bununla bağlı zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

## Rəsmi xronika

*Azərbaycan Prezidenti İlham Əliyev iyunun 17-də Dünya Azərbaycanlı Təbiblərinin I Simpoziumunun iştirakçılarını ölkəmizin paytaxtında öz işinə başlaması münasibətilə təbrik edib.*

*Dövlətimizin başçısı iyunun 19-da Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) Baş katibi Haysam Əl-Qaysı qəbul edib.*

*Ölkəmizin rəhbəri iyunun 19-da "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının 2023-cü il 13 iyun tarixli 911-VIQ nömrəli Qanununun tətbiqi barədə fərman imzalayıb.*

## Birgə əməliyyat keçirilib

Daxili İşlər Nazirliyi Qida Təhlükəsizliyi Agentliyi ilə birgə vətəndaşların ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində növbəti əməliyyat tədbiri həyata keçirib. Tədbir zamanı Cəlilabad rayonunda qidaya yararsız və ölü at ətinin mal əti adı altında satışını təşkil edən Səbuhi Abbasov saxlanılıb.

Araşdırmalarla müəyyən edilib ki, həmin şəxs Cəlilabad və ətraf rayonlardan xəstə, artıq təsərrüfatda istifadə edilməyən, ölmüş atları ucuz qiymətə alaraq həyətyanı sahəsində emal edəndən sonra mal əti adı altında satışı ilə məşğul olub.

Daxili İşlər Nazirliyi və Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən Səbuhi Abbasovun Cəlilabad rayonunun Maşlıq kəndində yerləşən həyətyanı sahəsinə və saxlanc yerinə baxış keçirilərkən qidaya yararsız 2 tondan çox at əti maddi sübut kimi götürülüb.

Təyin olunmuş müvafiq ekspertizalar zamanı aşkar olunmuş ətin qidaya yararsız və insan sağlamlığı üçün ciddi təhlükə mənbəyi olduğu təsdiq edilib.

## Ətraf mühitin mühafizəsi diqqət mərkəzindədir

Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsi əməkdaşlarının sanitariya-gigiyena qaydalarının pozulması hallarının qarşısının alınması məqsədilə iyunun 19-da Xızı rayonu ərazisində keçirdikləri tədbir zamanı meşəqırma fondundan istifadənin, oduncağın tədarük edilib daşınma qaydalarının pozulması, həmçinin sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi faktları aşkar olunub.

İnzibati Xətalar Məcəlləsinin 252-ci maddəsinin (meşəqırma fondundan istifadənin, oduncağın tədarük edilib daşınma qaydalarının pozulması) tələblərini pozduğuna görə vəzifəli şəxs M.Rəsulov, 271-ci maddəsinin (sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi) tələblərini pozduqlarına görə isə Fındığan, Giləzi və Sitalçay kənd bələdiyyələrinin sədrləri barəsində inzibati tənbeh tədbiri tətbiq olunub.

Bu istiqamətdə tədbirlər davam etdirilir.

# "NARAHAT OLMA, ATA, TEZLİKLƏ QƏLƏBƏ BİZİM OLACAQ!"

Bu sözləri çavuş Orxan Mirzəyev sonuncu dəfə atası Mehman kişi ilə telefon danışığı zamanı demişdi...



Çavuş Orxan Mirzəyev 1993-cü il sentyabrın 15-də Biləsuvar rayonunun Bağbanlar kəndində doğulsa da, Zəhmətabad kəndində boya-başa çatıb. Orxan orta təhsilini 2000-2009-cu illərdə şəhid Dadaş Dadaşov adına Zəhmətabad kənd ümumi orta məktəbində, 2010-2011-ci illərdə isə həmin kənddə yerləşən və şəhid Ənvər Rəhmətovun adını daşıyan tam orta məktəbdə alıb. Ailəsinin verdiyi məlumata görə, Orxanın hələ uşaqlıqdan hərbçi peşəsinə böyük marağı olub.

Müddətli həqiqi hərbi xidmətini 2011-ci ilin oktyabr ayından 2013-cü ilin aprel ayınadək Daxili Qoşunların 99713 saylı hərbi hissəsində keçib. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra elə həmin hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətə keçirilib. Sürücü-atıcı vəzifəsində xidmət edib.

Vətən müharibəsi iştirakçısı, Daxili Qoşunların veteranı, ehtiyatda olan polkovnik-leytenant Yavər Məmmədov vaxtilə komandiri olduğu dəstədə xidmət etmiş çavuş O.Mirzəyevi vətənpərvər, hərbi anda sadiq əsl döyüşçü kimi xatırlayır: "44 günlük Vətən müharibəsi zamanı dəstəmizin şəhidlik zirvəsinə yüksəlmiş üç nəfər igid döyüşçüsündən biri də çavuş Orxan Mirzəyevdir... Vətən müharibəsində iştirak edəcəyi xəbərini digər silahdaşları kimi Orxan da böyük sevinc hissi ilə qarşılamışdı. O, Füzuli və Şuşa istiqamətlərində düşmənin məhv edilməsində qəhrəmanlıq göstərib. Bir sözlə, Orxan cəsur döyüşçü kimi onu yaxından tanıyan silahdaşları tərəfindən hər zaman böyük ehtiramla xatırlanacaqdır".

Vətən müharibəsi iştirakçısı, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş əsgər Bəxtiyar Həsənov: "Orxanla birgə Müdafiə Nazirliyinin xüsusi təyinatlılarının da daxil olduğu eyni qrupun tərkibində döyüşlərdə iştirak etmişik. İlk döyüşümüz 2020-ci il oktyabrın 15-də Füzuli istiqamətində oldu. Üç gün burada düşmənin şiddətli artilleriya atəşinə məruz qaldıq. Lakin şəxsi heyət qarşıya qoyulan döyüş tapşırığını əzmlə yerinə yetirərək, dörd yaşayış məntəqəsini və bir neçə yüksəkliyi erməni işğalçılarından azad etməyə müvəffəq oldu.

Sonra bizi Hadrut qəsəbəsinə gətirdilər. Növbəti döyüş tapşırığımız Şuşanın azad olunması idi. Yaxşı xatirimdədir, bu xəbəri eşidəndə Orxanın sevincinin həddi-hüdudu yox idi. Şuşa şəhərini işğaldan azad edəcəyik deyə çox sevinirdi. Hadrut qəsəbəsində son tapşırıqları aldıqdan sonra ayrı-ayrı qruplarin tərkibində Şuşa istiqamətində hərəkətə başladıq. Dağlıq-meşəlik ərazi ilə uzun məsafəli yol qət edib, ermənilərin bəzi postlarından yan keçsək də, bir neçə dəfə pusquya da düşdük. Lakin döyüşçülərimizin mətinliyi sayəsində düşməni məhv edib, pusqudan çıxmağı bacardıq.

Bizim qrupun qarşısına Laçın-Şuşa yolunu nəzarətə götürmək və bu istiqamətdən düşmənin təminat yolunu bağlamaq tapşırığı qoyulmuşdu. Yolu nəzarətə götürməyə imkan verən əlverişli yüksəkliyi düşməndən təmizləyərək, orada möhkəmləndik. Düşmənin həmin yüksəkliyi geri almaq və yolu açmaq cəhdləri isə Orxan kimi cəsur döyüşçülərimizin qəhrəmanlığı sayəsində uğursuzluğa düçar oldu.

Döyüş meydanında məğlub olmuş erməni işğalçıları tərəfindən azad etdiyimiz mövqelər bir neçə gün tank, top və minaatanlardan şiddətli atəşə məruz qaldı. Noyabrın 6-dan 7-nə keçən gecə yaxınlıqlarında partlayan mərmilərin qəlpələrindən beş nəfər silahdaşımız - Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin zabiti polkovnik-leytenant Ramiz Cəfərov, qrup komandirimiz leytenant Q.Məmmədov, ən yaxın dostum çavuş O.Mirzəyev, 67987 saylı hərbi hissənin xüsusi təyinatlıları çavuş Orxan Ömərov və kiçik çavuş Mikayıl Mikayılzadə şəhid oldu, iyirmi beş nəfərə yaxın hərbi qulluqçu isə ağır yaralandı".

Vətən müharibəsi iştirakçıları, 99713 saylı hərbi hissənin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları çavuş Xəyal Yaşılov (hazırda Silahlı Qüvvələrə ehtiyata buraxılıb), kiçik çavuş Nəsir Nəsirli, əsgərlər Nihad Abdullayev və Elvin Qurbanəliyev eyni qrupun tərkibində vuruşduqları və şəhidlik zirvəsinə yüksəlmiş cəsur silahdaşları – leytenant Q.Məmmədovun və çavuş O.Mirzəyevin şücaətlərindən



böyük iftixar hissi ilə danışdılar. Onların döyüş meydanında göstərdikləri qəhrəmanlıqların gənc nəslə hər zaman örnək olduğunu bildirdilər.

3 saylı Bakı "ASAN xidmət" mərkəzi tərəfindən şəhidin ailəsinə verilən ölüm haqqında şəhadətnamədə çavuş O.Mirzəyevin döyüşdə şəhid olduğu tarix 9 noyabr 2020-ci il göstərilib.

Çavuş O.Mirzəyev 2020-ci il noyabrın 10-da Zəhmətabad kəndinin qəbiristanlığında dəfn olunub. Subay idi. Ailə üzvlərinin bildirdiklərinə görə, Orxan nişanlı olsa da, pandemiya səbəbindən toyu təxirə salınmışdı.

Azərbaycan Respublikası Prezidentinin 15, 25 və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları, həmçinin Azərbaycan Respublikası müdafiə nazirinin 28 dekabr 2020-ci il tarixli əmri ilə çavuş Mirzəyev Orxan Mehman oğlu ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və 3-cü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə təltif edilib.

Onu da qeyd edim ki, Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun diqqət və qayğısı nəticəsində şəhid hərbi qulluqçumuzun böyük qardaşı İlkin Mirzəyev daxili işlər orqanlarında xidmətə qəbul edilib. Polis serjantı olan İlkin hazırda Baş Mühafizə İdarəsinin Cəlilabad regional Mühafizə Şöbəsində polis nəfəri vəzifəsindədir.

Şəhidin digər qardaşı, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin hərbi qulluqçusu olan gizir Kamran Mirzəyev tank komandiri kimi Vətən müharibəsində iştirak edib. 2020-ci il oktyabrın 7-də Cəbrayıl istiqamətində onun olduğu tankın düşmən mərmisinə tuş gəlməsi səbəbindən ağır xəsarət alıb. Lakin Kamran öz arzusu ilə müalicəsi tam başa çatmadan oktyabrın 21-də yenidən hərbi əməliyyatlara qatılıb və Şuşayadək döyüş yolu keçib. Qardaşının şəhid olma xəbərini də məhz Şuşada olarkən öyrənib.

*mayor Anar Əhmədov*



# Vəkillər Kollegiyasının üzvü mühazirə oxuyub



Vəkillər Kollegiyasının üzvü, vəkil Fərid Həsənov Polis Akademiyasında əyani təhsil alan I kurs kursantlarına "Azərbaycan Respublikasında vəkillik fəaliyyəti mövzusunda" mühazirə oxuyub. F.Həsənov Azərbaycan Respublikasında vəkilliyin hüquq-müdafiə fəaliyyətini peşəkarcasına həyata keçirən müstəqil hüquqi təsisat kimi rolundan və əhəmiyyətindən danışıb, vəkillərin Azərbaycan Respublikasının Konstitusiyası, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanun, prosessual qanunvericilik və digər qanunlar əsasında fəaliyyətindən bəhs edib.

O, vəkillərin və onların birliyinin peşəkar fəaliyyətinə dair ətraflı məlumat verməklə yanaşı, vəkillik qanunun aliliyi, müstəqillik, demokratizm, humanizm, ədalət və konfidensiallıq prinsipləri əsasında fəaliyyət göstərdiyini də vurğulayıb.

Vəkilliyin əsas vəzifələri kimi fiziki və hüquqi şəxslərin hüquqlarının, azadlıqlarının və qanunla qorunan mənafelərinin müdafiə edilməsindən və onlara yüksək keyfiyyətli hüquqi yardımın göstərilməsindən ibarət olduğunu kursantların nəzərlərinə çatdıran natiq vəkillik fəaliyyəti dövründə qarşılaşdığı hüquqi problemlərin həlli yolları, məhkəmədə vəkilin müdafiə nitqinin prosessual-hüquqi tərəfləri, vəkilin çıxışları, vəkilliyə qəbul olunmaq üçün irəli sürülən zəruri tələblər və vəkil peşəsinin özəlliklərinə dair məlumatları da kursantların diqqətinə çatdırıb.

Mühazirənin sonunda kursantları maraqlandıran suallar cavablandırılıb, xatirə şəkli çəkilib.

# Gənc əməkdaşlarla vacib görüş






Daxili işlər orqanlarında ideoloji işin aparılması ilə bağlı respublikanın şimal bölgəsinin polis orqanlarında silsilə görüşlər keçirilib.

Gənc əməkdaşların mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, xidmətdə olduqları və xidmətdən kənar vaxtlarda etik-davranış qaydalarına riayət etmələrinin təmin edilməsi məqsədilə keçirilən tədbirlərdə Siyəzən, Şabran, Qusar, Quba, Xaçmaz və Xızı Rayon Polis şöbələrinin, Quba regional, Siyəzən rayonlararası, eləcə də Xaçmaz Rayon Mühafizə şöbələrinin şəxsi heyəti iştirak edib.

Təşkil olunan seminar-məşğələlərdə DİN Şəxsi Heyətlə İş İdarəsinin şöbə rəisi, polis polkovnik-leytenantı Firdovsi Nəsirov və baş inspektor, polis polkovniki Laçın Paşayev çıxış ediblər.

Məruzəçilər "Azərbaycanın daxili işlər orqanlarının milli təməllər üzərində formalaşmasında və inkişafında ümummilli lider Heydər Əliyevin rolu", "Daxili İşlər Orqanları Əməkdaşlarının Etik Davranış Kodeksi"nin tələbləri, cəmiyyətdə qəbul olunmuş mənəvi, əxlaqi və mədəni davranış, ailə-məişət normalarına riayət olunmasının vacibliyi kimi mövzular üzrə iştirakçılara zəruri məlumatlar veriblər. Bununla yanaşı, sosial şəbəkələrin cəmiyyətin şüuruna mənfi təsir etmə imkanları və yarada biləcək təhlükələr, eləcə də korrupsiya hallarına qarşı mübarizə məsələləri ilə bağlı əməkdaşlarla söhbətlər aparılıb, onları maraqlandıran suallar cavablandırılıb.

*R.Mehtiyev*

# Donorlar mükafatlandırıldı



Bu günlərdə "14 iyun – Ümumdünya Qan Donoru Günü" münasibətilə Səhiyyə Nazirliyi Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Qan Bankı və regiondakı bölmələri qan donorluğunda, donorluğun təbliğatında fəal iştirak edən bir sıra nazirliklərin, təşkilatların, qurumların nümayəndələri və vətəndaşlarla görüş keçiriblər.

Qeyd edilib ki, qan və onun komponentlərinin köçürülməsi hər il milyonlarla insanın həyatını xilas etməyə imkan verir. Azərbaycanda 1500-ə yaxın talassemiyalının, həyatları qandan asılı olan digər hematoloji xəstələrin və təcili əməliyyata ehtiyacı olan şəxslərin hər zaman davamlı qan təminatı zəruridir.

Keçirilən tədbirdə, Baş Dövlət Yol Polisi İdarəsinin Kadrlar şöbəsinin inspektoru, **polis baş leytenantı Könül Knyazova və kiçik inspektor, polis baş serjantı Ceyla Zəkəriyyəli** də iştirak edib.

Qan donorluğunun təşkilatçılığında fəal iştirakına və verdiyi dəstəyə görə Baş Dövlət Yol Polisi İdarəsinə təşəkkür təqdim edilib, xatirə şəkli çəkdirilib.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

## BİZƏ YAZIRLAR...

Paytaxt sakini Günel Səmədova şantaj olunması, hədələrə məruz qalması ilə bağlı müraciətinin həllini tapmasında göstərdikləri köməkliyə görə Nəsimi RPİ 22-ci Polis Şöbəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

Elfan Qonaqbəyov və Vüsal Əsədov dələduzluğa məruz qaldıqları barədə Nərimanov RPİ 16-cı Polis Bölməsinə etdikləri müraciətdən sonra tez bir zamanda problemlərinin həll olunduğunu yazırlar.

“Azərbaycan Polisi müraciətlərə həssaslıqla yanaşır. Belə ki, sosial şəbəkə üzərindən ünvanladığım müraciətə operativ baxıldı və problemim müsbət həllini tapdı”. Bu fikirlər Bakı şəhər sakini Elman Manafovun DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubundandır.

Vətəndaş Nazim Əliyev ona məxsus mopedinin oğurlanması ilə bağlı müraciətinə tez bir zamanda baxılaraq tapılıb ona təhvil verilməsində göstərdikləri köməkliyə görə Səbail RPİ 9-cu Polis Bölməsinin əməkdaşlarına təşəkkürünü ifadə edir.

Sumqayıt şəhər sakini Məlahət Abdullazadə avtomobildə yaranan nasazlıq zamanı yolda qalarkən Qusar RPŞ Şahdağ Polis Bölməsinin əməkdaşları tərəfindən onlara göstərilən köməkliyə görə Azərbaycan Polisinə təşəkkürünü bildirir.

İsmayıl Əhmədov isə şikayətinin Binəqədi RPİ 43-cü Polis Bölməsində operativ və obyektiv araşdırılmasından razılığını ifadə edir.

Sumqayıt şəhər sakini Taleh



Məmmədov ictimai sabitliyin qorunmasında, cinayətkarlıqla mübarizədə, narkotiklərin qanunsuz dövriyyəsinə istifadəsinə qarşı aparılan qətiyyətli mübarizə tədbirlərinə görə Azərbaycan Polisinin xidməti fəaliyyətini təqdir edir.

Reyhan Quliyeva baş vermiş oğurluq hadisəsi ilə bağlı şikayətinə operativ baxılmasına və ona dəyən ziyanın tam ödənilməsində göstərdikləri köməkliyə görə Xətai RPİ 34-cü Polis Şöbəsinin əməkdaşlarının xidməti fəaliyyətini təqdir edir.

Mahirə Marandskaya təhqir edilməsi ilə bağlı “102” Xidməti-zəng Mərkəzinə müraciət etdiyi zaman operativ reaksiyaya, probleminə həssaslıqla yanaşılmasına görə Nərimanov RPİ 16-cı Polis Bölməsinin əməkdaşlarına təşəkkürünü bildirir.

Kamilə Nərimanova dələduzluğa məruz qalması ilə bağlı şikayətinə tez bir zamanda baxılaraq ona dəyən ziyanın ödənilməsində göstərdikləri köməkliyə görə Yasamal RPİ 26-cı Polis Bölməsinin əməkdaşlarına təşəkkürünü ifadə edir.

Elnarə Nəsibova isə mobil telefonunu itirməsi ilə bağlı şikayətinə operativ baxılmasına və tez bir zamanda tapılıb ona təhvil verilməsində göstərdikləri köməkliyə görə Xətai Rayon Polis İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

Cavid Allahverdiyev və Fuad Əsgərov şikayətlərinə operativ baxılaraq, obyektiv araşdırılma aparılmasına görə Nərimanov Rayon Polis İdarəsinin əməkdaşlarına təşəkkürlərini bildirirlər.

*Aytəkin Nəcəfova, polis polkovnik-leytenantı*

# Qəhrəmanlarımızı tanıyaq...



Fərzəliyev Pəhlivan Əhliman oğlu 1958-ci il sentyabrın 27-də Füzuli rayonunun Qobu Dilağarda kəndində doğulub. Doğma kənddə səkkizinci sinifi başa vurduqdan sonra Şuşa Kənd Təsərrüfatı Texnikumuna daxil olub. O, texnikumda oxuduğu illərdə idmanın sərbəst güləş növü ilə məşğul olub. Şuşada keçirilən çempionatda Qarabağ çempionu adını qazanıb. 1979-cu ildə ordu sıralarına çağırılıb. Hərbi xidmətdən tərxis olunduqdan sonra isə Qazaxıstanın Aktyubinsk şəhərinə gedib və orada daxili işlər orqanlarında işə başlayıb. O, təhsilini davam etdirməyi də unutmayıb. Sənədlərini Orenburq Politexnik Universitetinə verib. 1986-cı ildə universitetin avtomobil nəqliyyatı fakültəsini bitirib, 4 il Aktyubinsk şəhər daxili işlər orqanlarında çalışıb. O, 1990-cı ildə baş leytenant rütbəsində Vətənə dönüb. Füzuli rayon DİŞ-də növbətçi inspektor vəzifəsində xidmətə başlayıb.

Füzuli rayon DİŞ-də post-patrul rotası yaradıldıqdan sonra - 1991-ci ilin mart ayında o, rotanın 3-cü taqımına komandir təyin olunub. Xidmətlərinə görə ona ikinci bir vəzifə - BTR-in ekipaj komandiri vəzifəsi etibar edilib. Füzuli rayonundakı sərhəd kəndlərinin qorunmasında o, taqımı ilə birgə mərdliklə döyüşüb, Xələfşə kəndində bir qrup erməni yaraqlısı və bir BTR məhv edilib. 1992-ci il aprel ayının 11-də Qacar kəndi uğrunda gedən ağır döyüşlərdə düşmən postunu ələ keçirərkən şəhid olub.

Füzuli rayonunun Qobu Dilağarda kəndində torpağa tapşırılıb. Evli idi. İki oğlu, bir qızı yadigar qalıb.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə baş leytenant Fərzəliyev Pəhlivan Əhliman oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilib. Bakı şəhərindəki qəsəbələrdən biri qəhrəmanın adını daşıyır.

# Narkomaniyaya qarşı konfrans





Fövqəlada Hallar Nazirliyinin Mülki müdafiə qoşunlarının şəxsi heyəti ilə “Narkomaniyanın cəmiyyətə və insan sağlamlığına ziyanı” mövzusunda maarifləndirici konfrans keçirilib. Tədbirdə Bakı Şəhər Baş Polis İdarəsinin əməkdaşı məruzəçi qismində çıxış edib.

Baş İdarənin inspektoru, polis leytenantı Mehriban Cabarova narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı aparılan qətiyyətli mübarizə haqda danışıb.

Bu problemlə əlaqədar 2000-2006, 2007-2012 və 2013-2018-ci illəri əhatə edən üç mühüm Dövlət Proqramının icra edilməsinə diqqət çəkən M.Cabarova hazırda dördüncü, növbəti 5 illik proqrama uyğun olaraq daxili işlər orqanları, xüsusən, paytaxt polisi tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı uğurlu əməliyyat-axtarış, həmçinin maarifləndirici tədbirlərin davam etdirildiyini bildirib.

Tədbirin sonunda narkomaniyanın zərərlərindən bəhs edən film nümayiş olunub.

*R.Mehtiyev*

# Çempionatın qalibi polis oldu



Bu günlərdə Bakıda idmanın streetlinftinq növü üzrə keçirilən Respublika çempionatına yekun vurulub. DİN-nin Baş Mühafizə İdarəsi Göygöl Rayonlararası mühafizə bölməsinin əməkdaşı, polis serjantı Bəhruz Ələkbərov +100 kiloqram çəkidə yarışın qalibi olub.

İdmançımız turnik növündə belindən asılan 50 kiloqramın öhdəsindən layiqincə gəlib. Bununla da o, 8 rəqibini geridə qoyaraq fəxri kürsünün ən yüksək pilləsinə yüksəlib.

Həmkarımız daha öncə də Azərbaycan çempionatlarında yüksək nəticələr əldə edib. O, pauerliftinq üzrə 7, stronqman üzrə 5 qat ölkə birincisidir.

Qeyd edək ki, polis serjantı B.Ələkbərov 2009-cu ildən daxili işlər orqanlarında xidmətdədir.

*Eşqin Qasımov, polis kapitanı*

# Xidmətdən sonrakı xidmət




Yasamal rayonunda yol nəqliyyat hadisəsi zamanı xəsarət almış piyada polis əməkdaşının operativliyi sayəsində vaxtında xəstəxanaya çatdırılıb.

Hadisə bir neçə gün əvvəl rayonun Hüseyn Cavid prospektində baş verib. Yolu keçmək istəyən L.Abbaslını avtomobil vurması nəticəsində ağır xəsarət alıb. Həmin vaxt xidmətdən çıxıb evə gedən **Nəsimi RMİ-nin əməkdaşı, polis serjantı Nurçin Şərifli** dərhal hadisəyə müdaxilə edib.

Qəzetimizə bu haqda məlumat verən günün qəhrəmanı N.Şərifli bildirdi ki, özünü hadisə yerinə çatdıranda xəsarət almış məktəbli qız halsız vəziyyətdə yerdə uzanmışdı. Əməkdaşımız piyadanın vurulduğu yerə çağırdığı təcili tibbi yardım gələnə qədər ona yardım edib və qəza barədə aidiyyəti dövlət qurumlarına məlumat verib. Məktəbli xəstəxanaya çatdırılıb.

Onu da qeyd edək ki, polis nəfəri N.Şərifli hazırda DİN Polis Akademiyasının 5-ci kurs dinləyicisidir.

*“Polis”*

# Polis veteranının filmi mükafat aldı




Azərbaycanın tanınmış xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyevdən bəhs edən “100 il şərəfli ömür” bədii-sənədli filmi ölkəmizi beynəlxalq festivalda təmsil edib.

Bolqarıstanda keçirilən tədbirdə “100 il şərəfli ömür” filmi “Qızıl Femi” mükafatına layiq görülüb. Mükafatın təqdimat mərasimi 71 ölkədə canlı yayımlanıb.

Ekran əsərinin ssenari müəllifi, quruluşçu rejissoru polis veteranı Cəlaləddin Qasımov festivalın direktoru Feminin dəvəti ilə tədbirdə iştirak edib.

Mərasim Bolqarıstan Respublikasının paytaxtı Sofiya şəhərində yerləşən “SOFIA HOTELL BALKAN” kompleksində təşkil olunub. Tədbirə fəxri himayədarlığı Bolqarıstan Respublikasının vitse-prezidenti, xanım Marqarita Popova edib.

Filmin rejissoru Cəlaləddin Qasımov “Polisə” festivalda daha bir sevindirici xəbər aldığını deyib: “Festivalın direktoru mənə bildirdi ki, Hacı Zeynalabdin Tağıyevdən bəhs edən “100 il şərəfli ömür” bədii-sənədli filmini izlədikdən sonra Tağıyevin həyatı onu və münsifləri çox təsirləndirib. O, bu filmi Bolqar dilinə çevrildikdən sonra TV-də yayımlanması üçün məndən icazə istədi”.

C.Qasımov bildirib ki, filmin çəkilməsində əsas məqsəd Hacı Zeynalabdin Tağıyevin harada olmasından asılı olmayaraq, soydaşlarının imdadına çatmasını, Azərbaycan xalqının maariflənməsi, istedadlı insanların yüksək təhsil alması, kütləvi savadsızlığın aradan qaldırılması, ölkədə iqtisadiyyatın hərtərəfli inkişafının təmin olunması, habelə milli kadrların hazırlanması üçün zəruri tarixi missiyanı yerinə yetirdiyini geniş işıqlandırmaqdır.

Qeyd edək ki, Hacı Zeynalabdin Tağıyev barədə çəkilən bu film artıq Avropadan və ABŞ-dan 19 mükafat alıb.

# Çətənə kolları məhv edilib





Tovuz Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri "Xaş-xaş-2023" şərti adlı kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər nəticəsində rayonun Hunanlar, Əyyublu, Əlimərdanlı kəndlərinin ərazisində yabanı halda bitən narkotik tərkibli çətənə kolları aşkar edilib.

Ümumi çəkisi 10 ton 633 kiloqram olan, 8414 ədəd çətənə kolları kökündən çıxarılıb və yandırılaraq məhv edilib.

◆◆◆

Balakən Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri “Xaş-xaş-2023” şərti adlı kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər nəticəsində rayon ərazisində yabanı halda bitən narkotik tərkibli bitkilər aşkar edilib.

Keçirilən tədbir zamanı Kortala kəndi ərazisində yabanı halda bitən, ümumi çəkisi 5 tondan artıq olan 5400 ədəd çətənə kolu kökündən çıxarılıb və yandırılaraq məhv edilib.

◆◆◆

Xocavənd Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri tədbir zamanı rayonun Tağaverd kəndi ərazisindəki meşə massivində yabanı halda bitən, çəkisi 1 ton 500 kiloqram olan 5000 ədəd çətənə bitkisi kökündən çıxarılıb və yandırılaraq məhv edilib.

# Daha bir yarış yekunlaşıb

DİN İdman Cəmiyyətinin təşkilatçılığı ilə Nərimanov Rayon Polis İdarəsinin şəxsi heyəti arasında ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə, eləcə də "15 iyun - Qurtuluş Günü"nə həsr olunmuş silahsız özünümüdafiə və əlbəyaxa döyüş üzrə turnir keçirilib.

"Abu Arena" idman kompleksində baş tutan yarışda ümumilikdə 80 əməkdaş gücünü sınayıb.

Ümummilli lider Heydər Əliyevin, respublikanın ərazi bütövlüyü uğrunda şəhid olanların, eləcə də xidməti tapşırıqları yerinə yetirərkən həlak olmuş həmkarlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət Himni oxunub. **İdarə rəisi vəzifəsini müvəqqəti icra edən, polis polkovniki Arzu Heydərov** "15 iyun - Qurtuluş Günü" münasibətilə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun təbrikini şəxsi heyətə çatdırdıqdan sonra yarış açıq elan olunub.

Çıxış edən A.Heydərov iştirakçılara ulu öndərin idmana və idmançılara verdiyi önəmdən, göstərdiyi qayğıdan danışıb. Eyni zamanda turnirin daxili işlər orqanları əməkdaşlarının döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi, silahsız özünümüdafiə və əlbəyaxa döyüş bacarıqlarının daha da təkmilləşdirilməsi məqsədi daşıdığını bildirib və idmançılara uğurlar arzulayıb.

İkimərhələli yarışda əməkdaşlar əvvəlcə silahsız özünümüdafiə bacarıqları ilə sınağa çəkilib. İlk mərhələni məharətlə keçən 34 idmançı növbəti tura vəsiqə qazanıb. Gərgin idman mübarizəsi şəraitində keçən turnirin 67, 73, 80, 88, 97 və +97 kiloqram çəki dərəcələrinin ən güclüləri müəyyənləşib.

İdarə rəisi əvəzi qaliblərə medal, diplom və qiymətli hədiyyələri təqdim edib.

Qeyd edək ki, yarışa İdman Cəmiyyətinin fiziki hazırlıq şöbəsinin baş inspektoru, polis mayoru Elşən İbişov rəhbərlik edib.

*Teymur Əlizadə, polis mayoru*







**DİN Baş Narkotiklərlə Mübarizə İdarəsinin Qərb Bölgəsində Regional Şöbəsi və Dövlət Sərhəd Xidməti** əməkdaşlarının birgə keçirdikləri əməliyyat tədbiri nəticəsində Beyləqan rayonu ərazisində saxlanılan Bakı şəhər sakini Q.Hüseynovdan çəkisi 97 kiloqram 338 qramdan artıq marixuana, 5 kiloqram 10 qram heroin, 1200 ədəd metadon həbi və 1 ədəd bank kartı aşkar olunaraq götürülüb.

◆◆◆

**Səbail RPİ 8-ci Polis Bölməsi** əməkdaşlarının daxil olan məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində iyunun 19-da Ö.F.Nemanzadə küçəsində Bakı şəhər sakini olan bir qadının içərisində 80 manat, 23.500 ABŞ dolları və sənəd olan cüzdanını oğurlamaqda şübhəli bilinən Ağdam rayon sakini X.Məmmədov müəyyən edilərək saxlanılıb.

◆◆◆

**Xəzər RPİ 2-ci Polis Şöbəsi** əməkdaşlarının daxil olan məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində iyunun 12-də Bakı şəhər sakini olan bir qadının bank kartından 2000 manatı oğurlamaqda şübhəli bilinən paytaxt sakini olan yeniyetmə müəyyən edilərək saxlanılıb.

◆◆◆

**Ağcabədi Rayon Polis Şöbəsi** əməkdaşlarının əldə olunan məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində şəhər ərazisində Abşeron rayon sakini, əvvəllər məhkum olunmuş Z.Abdullayevdən "AKMS" markalı avtomat silahı, 4 ədəd patron və patron darağı götürülüb.

◆◆◆

**Sumqayıt ŞPİ 4-cü Polis Bölməsi** əməkdaşlarının daxil olan məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində iyunun 9-da şəhər sakini olan bir nəfərin "M10" hesabından 4890 manat oğurlamaqda şübhəli bilinən Sumqayıt sakinləri S.Məmmədov və əvvəllər məhkum olunmuş S.Məmmədzadə müəyyən olunaraq saxlanılıblar.

◆◆◆

**Babək Rayon Polis İdarəsi** əməkdaşlarının əldə olunan məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində Cəhri qəsəbə sakini M.Niftəliyevin yaşadığı evin həyətinə baxış zamanı "Naqan" tipli tapança və 7 ədəd patron aşkar edilərək götürülüb.

◆◆◆

**Şirvan Şəhər Polis Şöbəsi** əməkdaşlarının daxil olan məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində iyunun 15-də şəhər sakini olan 86 yaşlı bir qadının içərisində pul, gümüş üzük və açar olan cüzdanını soyğunçuluq yolu ilə talamaqda şübhəli bilinən həmyerlisi, əvvəllər məhkum olunmuş M.Təfəzzuli müəyyən olunaraq saxlanılıb.

Araşdırma aparılır.

## İDMAN XRONİKASI

### Əməkdaşımız yenə çempiondur




Dəfələrlə çempion olan əməkdaşımız titulunu növbəti yarışda da qoruyub saxlayıb. Rusiyanın Sankt-Peterburq əyalətində poverliftinq üzrə 37 ölkəni təmsil edən idmançıların iştirakı ilə keçirilən dünya çempionatı baş tutub. Yarışda ölkəmizi təmsil edən idmançılar arasında Baş Dövlət Yol Polisi İdarəsinin Yol Patrul Xidməti Alayının baş inspektoru, polis kapitanı Famil Məhərrəmov da iştirak edib.

İdmançı əməkdaşımız 230, 240 və 250 kiloqram ağırlıqqaldırma yarışlarında rəqiblərini üstələyərək çempionluğunu yeniləyib və poverliftinq üzrə dünya kubokuna layiq görülüb.

Qeyd edək ki, ağır atletimiz buna qədər poverliftinq üzrə 3 dəfə dünya, 3 dəfə Avropa, 5 dəfə respublika çempionu, 5 dəfə isə beynəlxalq turnirin qalibi olub.

*"Polis"*

### Birinci Bakı Beynəlxalq Koreş turniri keçirilib







Tatarların milli bayramı Sabuntaya həsr olunan tədbirdə Rusiya Federasiyası Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov, Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov, ölkəmizin Rusiyadakı səfiri Polad Bülbüloğlu, ictimaiyyət və KİV nümayəndələri iştirak ediblər.

Milli bayram ərəfəsində iyunun 17-18-də Birinci Bakı Beynəlxalq Koreş turnirinin keçirilməsi də tamaşaçılar tərəfindən maraqla qarşılanıb. Beş çəki dərəcəsində 75 idmançının iştirak etdiyi Tatar milli kəmər güleşi üzrə keçirilən beynəlxalq yarışda DİN-ə Bilavasitə Tabe olan İnzibati Həbs olunanların Saxlama Mərkəzinin əməkdaşı, polis leytenantı Sadiq Ağamalıyev də öz gücünü sınayıb.

Həmkarımız mütləq çəki hesab olunan +90 çəki dərəcəsində keçirdiyi 4 görüşün 3-də qalibiyyət qazanaraq gümüş medala sahib çıxıb.

S.Ağamalıyev Kazan şəhərində keçiriləcək Koreş üzrə dünya çempionatına vəsiqə qazanıb.

*Ruhiyyə Əliyeva, polis kapitanı*


## XƏZRİ sizi gözləyir




**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 1-ci mövsüm üzrə 01 iyun - 15 sentyabr 2023-cü il tarixlərə qiymətləri**

**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

Qeyd: **1.** "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

**2.** Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

**3.** Bir günlük xərc tək polis əməkdaşı üçün 36,25 manat (iki nəfərlik nömrəni tək tutduqda 57,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 108,75 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 87,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 145,00 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 175,00 manat təşkil edir.

**4.** 6 yaşadək uşaqların qalması ödənişsizdir.

**5.** Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, su attraksionundan, trenajorlardan, mini futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir.

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. "Koroğlu" metrostansiyasından Mərkəzə 171 nömrəli avtobusla gəlmək olar.**
**Telefon: (+994 12) 554-47-60;**
**Mobil telefon: (+994 50) 291-15-51; (+994 55) 291-15-51;**
**Faks: (+994 12) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**Veb-sayt: www.khazri.mia.gov.az**
**E-poçt: info@khazri.mia.gov.az**

| 01 iyun - 15 sentyabr 2023-cü il (2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 290 manat, bir nəfər tək qaldıqda 230 manat) | | |
|---|---|---|
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 36,25 manat | 57,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 72,50 manat | 115 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 30 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 145 manat | 230 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 60 manat | |



POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9860
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Çapa imzalanmışdır 18:00
Qiyməti 40 qəpik